# İƏT-ə üzv dövlətlərin əmək nazirlərinin iştirakı ilə "dəyirmi masa" keçirilib



**İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin əmək nazirlərinin və nümayəndə heyətlərinin Bakıya səfəri çərçivəsində yüksəksəviyyəli "dəyirmi masa" keçirilib.**

"Dəyişən Əmək Dünyasında İnnovativ Əmək və Məşğulluq Strategiyaları: Qlobal Çağırışlar - Milli Həllər" mövzusunda təşkil edilən tədbirin açılış sessiyasında çıxış edən Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Bakının xalqlar arasında dostluq və əməkdaşlığa xidmət edən daha bir mühüm tədbirə evsahibliyi etməsindən məmnunluğunu ifadə edib. O, Azərbaycanın əmək münasibətləri sahəsində İƏT ilə səmərəli əməkdaşlıq etdiyini diqqətə çatdırıb, Prezident İlham Əliyevin tapşırıqları ilə son illər əmək, məşğulluq və sosial müdafiə sahələrində həyata keçirilən islahatlar barədə məlumat verib. Ölkəmizdə layiqli əməyin təmin olunması, məhsuldarlığın artırılması, sabit və keyfiyyətli iş yerlərinin yaradılması, işçi qüvvəsinin peşəkarlığının yüksəldilməsi, təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsinin əmək, məşğulluq sahəsində həyata keçirilən siyasətin prioritet istiqamətlərini təşkil etdiyini vurğulayıb.

İƏT Əmək Mərkəzinin Baş direktoru Azər Bayramov mərkəzin məşğulluq, sosial müdafiə və insan kapitalının inkişafı istiqamətində üzv ölkələr arasında əlaqələndirmə missiyasını uğurla yerinə yetirdiyini bildirib.

Səudiyyə Ərəbistanı Krallığının insan resursları və sosial inkişaf nazirinin müavini Abdullah Nasser M.Abuthnain "Əmək və Məşğulluq Sistemlərinin Transformasiyası: Çağırışlardan İmkanlara" mövzusunda çıxış edərək fikirlərini bölüşüb.

Növbəti sessiyalarda İƏT-ə üzv ölkələrdə qeyri-formal məşğulluqla mübarizə, işçi qüvvəsinin səmərəli idarəsi və bacarıqların müasir iş dünyasının tələblərinə uzlaşdırılması, həmçinin əmək mobilliyinin artırılması kimi bir sıra çağırışlar müzakirə olunub.

Sonra peşə təhsili, məşğulluq proqnozlaşdırması və regional əməkdaşlıq sahəsində müzakirələr aparılıb. Azərbaycanın DOST və "Əmək və məşğulluq" alt sistemi (ƏMAS) kimi innovativ təcrübələri təqdim edilib.

Tədbir çərçivəsində İƏT Əmək Mərkəzinin Baş Assambleyasının 2-ci sessiyasına hazırlıqla bağlı sənəd layihələri və hesabatların müzakirəsi məqsədilə yüksəkvəzifəli rəsmilərin görüşü də olub.

Sessiyanın növbəti il üçün sədri Azərbaycan, sədr müavinləri Səudiyyə Ərəbistanı və Çad Respublikası seçilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 25 sentyabr (№205).- S.8.